BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2013

UOT 94 "19/…"

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BORÇALI TORPAQLARI ƏTRAFINDA VƏ DAXİLİNDƏ YARANMIŞ VƏZİYYƏT

**M.Ə.ABBASOVA**
***Azərbaycan Dillər Universiteti***
***abbasovamehriban@mail.ru***

*Məqalədə Borçalı zonasında XX əsrin əvvəllərində baş verən hadisələr haqqında məlumatlar verilir.*

*Birinci dünya müharibəsi dövründə burada yaşayan Azərbaycan türklərinin ağır vəziyyəti, xüsusilə vurğulanır. Şərqi Gürcüstanda 1905-ci və 1918-ci illərdə ermənilər tərəfindən törədilən milli qırğınlar haqqında da məlumatlar verilir.*

*Məqalənin sonunda 1918-ci ildə Ermənistan və Gürcüstan arasında baş vermiş qısamüddətli müharibə nəticəsində Borçalı torpaqlarının bir hissəsi Lori-Pəmbək zonasının Ermənistana verilməsi ilə bağlı olan məlumatlar açıqlanır.*

**Açar sözlər:** Borçalı zonası, azərbaycanlılar, ermənilər, Şərqi Gürcüstan, müharibə, kəndlilər, Qarapapaq

XX əsrin 20-ci illərinə qədər Borçalı torpaqları XIX əsr ərzində olduğu kimi, vahid bir inzibati rayon kimi qalmaqda davam edirdi, yəni qəza olaraq Tiflis quberniyasına daxil idi. 1902-ci ildə Borçalı qəzasının ərazisi 6567 kv. kilometr təşkil edirdi [10, 47].

XX əsrin lap əvvəllərində Tiflis quberniyasında yaşayan azərbaycanlı əhalisinin sayı "107623 nəfər idi, onlardan – 83445 nəfər Borçalı qəzasının özündə, 14749 nəfər isə - Tiflis quberniyasının Tiflis qəzasının, müxtəlif məntəqələrində yaşayırdı". Məsələn, Tiflis şəhərinin özündə bu dövrdə on minə yaxın azərbaycanlı yaşayırdı [9, 21].

Azərbaycanlılar yaşayan kəndlərdə əhalinin sıxlığı digər - gürcülər, ruslar və almanlar yaşayan yaşayış məntəqələrindən 1,4 faiz daha çox idi.

XX əsrin əvvəllərində Borçalı qəzası bir neçə sahəyə bölünmüşdü, sahələr də, öz növbəsində, kənd cəmiyyətlərinə bölünmüşdü.

Bu dövrdə bütün Cənubi Qafqazı, eləcə də Borçalı zonasını əhatə edən erməni və azərbaycanlıların qarşıdurması gərginləşdirdi. Bu qarşıdurma əvvəlcə məişət zəminində baş verdi, sonralar isə tədricən millətlərarası qırğına çevrildi. "Qəzada yerləşmiş seyrək erməni kəndləri hər tərəfdən sıx əhalisi olan

Azərbaycan kəndlərinin əhatəsində olduğundan ermənilərin açıq silahlı toqquşmaya başlamaq kimi məkrli arzuları iflasa uğradı. Buna baxmayaraq Şulaver, Xaçın, Koruncuk, Bosleb və s. kimi kəndlərin erməni əhalisi azərbaycanlıların əleyhinə qaldırılmışdı. Kənd bölgələrində müsəlman əhalisinə zərbə vura bilməyən ermənilər öz güclərini azərbaycanlıların azlıq təşkil etdikləri Tiflis şəhərinə yönəltdilər. "1905-ci il noyabrın 20-də Tiflis şəhərində ermənilərlə azərbaycanlılar arasında silahlı toqquşmalar baş verir. Bu zaman borçalılar çətin vəziyyətə düşən həmyerlilərinin köməyinə gəlməyə hazır idilər. Borçalı zonasından olan zabit Hüseyn bəy Yadigarovun Tiflisdə Vorontsov küçəsi 17-də yerləşən mənzili bu faciəli günlərdə bir növ hərbi qərargahı xatırladırdı.

Erməni və azərbaycanlıların toqquşması nəticəsində Maydanda və "Xallaver məhəlləsi" adı ilə məşhur olan kvartallarda 34 nəfər öldürülmüş, və 55 nəfər yaralanmışdı.

Erməni-Azərbaycan qırğını 1905-ci ildə Tiflisdə bir neçə gün davam etmişdi. Ö.F.Nemanzadənin yazdığına görə [5, 472], bu faciəli hadisələr iki həftəyə yaxın davam etmişdir.

Çar hökuməti millətlərarası ixtilaflara diqqət yetirmir, xalqların istismarını ləğv etməyə səylər göstərmir və istismar olunan xalqların tələblərinin həyata keçirilməsini ləngidirdi. Bütün bunlar xalqın səbr kasasını doldururdu. Nəticədə Borçalı zonasında, bütün Cənubi Qafqazda olduğu kimi, aqrar hərəkatı baş verir.

1913-cü ilin payızında Qafqaz Canişinliyinin Şurasında Borçalı qəzasının guya etnik prinsipi üzrə bölüşdürülməsi haqqında layihə hazırlandı [7, 48]. Bu layihəyə görə, qəzanın çox hissəsi İrəvan quberniyasına qatılmalı idi, qalan şimali-şərq hissəsi isə Yelizavetpol (Gəncə) quberniyasına keçməli idi. Bu layihə Şuranın 1913-cü il noyabrın 6-da və dekabrın 18-də keçirilən iclaslarında müzakirə edildi. Nəticədə "Borçalı qəzasını Tiflis quberniyasından ayırmağın arzuolunmaz" olduğu haqqında qərar qəbul edildi [8, 15-17]. Komissiyanın bütün üzvləri qərarın lehinə səs verdilər və 1914-cü il yanvarın 24-də quberniya Şurası tərəfindən bu qərar təsdiq edildi.

Birinci dünya müharibəsi illərində Borçalı zonasının əhalisi də çox əziyyətlər çəkmişdi, ona görə ki, Qafqaz cəbhəsində vuruşan dövlətlərin orduları qismən Borçalı zonasından keçərək hərəkət edirdi. Borçalı zonasında yerləşdirilmiş alman hərbçiləri yerli əhalini sıxışdırır, kənd əhalisini soyaraq özbaşınalıq edirdilər. Müharibə illərində almanlar Borçalı zonasından böyük miqdarda mis, yun, dəri və s. kimi məhsullar aparmışlar. Alman komandanlığı tərəfindən Gürcüstandan aparılan məhsulunun 1⁄3 hissəsi Borçalı qəzasının payına düşürdü. Bu da təbii ki, xalq üçün böyük bir yük olaraq onun vəziyyətini daha da çətinləşdirirdi.

Müharibə illərində Borçalı qəzasında, zərər çəkmiş əhaliyə yardım göstərmək məqsədilə müxtəlif qurumlar və təşkilatlar yaradılmışdı. Məsələn, burada həmçinin Qırmızı Xaçın şöbəsi fəaliyyət göstərirdi. Qafqaz sənaye və

metallurgiya cəmiyyətinə məxsus Allahverdi misəritmə zavodunda 25 çarpayılıq xəstəxana fəaliyyət göstərirdi. 1917-ci il martın 24-də Tiflis quberniyası üzrə ərzaq komitəsi yaradıldı, onun bir şöbəsi Borçalı qəzasının Sulaveri kəndində yerləşmişdi [11, 16].

1917-ci ildə Borçalı qəzasında aqrar hərəkatı daha kəskin formada özünü büruzə verir. 1917-ci ilin aprel ayında Xüsusi Zaqafqaziya Komitəsi bütün quberniya və qəza icraiyyə komitələrinə kəndlilər tərəfindən mülkədar torpaqlarını ələ keçirilməsini dayandırmaq üçün təcili tədbirlərin həyata keçirilməsi haqqında sərəncam verir [9, 1]. Zaqafqaziya Komitəsinin sədri vəzifəsini icra edən Çxenkeli 1917-ci il sentyabrın sonunda yenidən sərəncam verərək tələb edirdi ki, "Borçalı qəzasında kəndli hərəkatına qarşı qəti tədbirlər görülsün" [11, 154].

1917-ci ildə Borçalıda narahatçılıq doğuran problemlərdən biri milli məsələ idi. Bu mürəkkəb dövrdə milli münasibətlərin kəskinləşməsi ilə bağlı 1917-ci ilin noyabr ayında Tiflis şəhərində müsəlman, yunan, aysor, polyak, Ukrayna milli şuraları, eləcə də rus milli şurasının müvəqqəti bürosu yaradılır və fəaliyyət göstərirdilər. Həmçinin bu təşəkkül prosesində müvafiq olaraq milli hərbi hissələri də yaradıldı [7, 22].

Borçalı zonasında yaşayan ermənilər öz milli şurasına söykənərək yenidən Borçalı torpaqlarının bölüşdürülməsi haqqında məsələni qaldırırlar. Yəni Lori sahəsinin və Borçalı qəzasının bir sıra torpaqlarını Aleksandropol (Gümrü) quberniyasına birləşdirilməsi haqqında tələbləri irəli sürdülər. Həmin ilin payızında Borçalı qəza komissarı, görkəmli Azərbaycan ictimai xadimi və yazıçısı Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü ilə Lori sahəsi üzrə bütün kənd icmaları nümayəndələrinin iştirakı ilə qurultay çağırıldı. Qurultayda Borçalı qəzasını heç bir şərtlə Tiflis quberniyasından ayırmamaq haqqında yekdilliklə (bir nəfər Calaloğlu kəndinin nümayəndəsi V.Saakovdan başqa) qərar qəbul edildi. Bu qərar 1917-ci il noyabrın 10-da Tiflis şəhərində çağırılmış quberniya Şurasının iclasında təsdiq edildi [11, 76].

Lakin erməni separatçıları öz ideyalarının iflası ilə barışmaq istəmir və həmişəki kimi özlərinin erməni dövlətini yaratmaq haqqında məkrli arzusunu yerinə yetirmək üçün əlverişli vaxt gözləyirdilər. İ.Cavaxaşvili qeyd edir ki, həmin dövrdə İstanbul şəhərində ermənilər tərəfindən fantastik "Böyük Ermənistan" xəritəsi nəşr edilmişdi" [5, 13].

Bu xəritədə Ermənistanın ərazisi şimalda Qara dənizdən Xəzər dənizinə qədər uzanır, cənubda isə Aralıq dənizi və Samsun şəhərindən başlayaraq yenidən Xəzər dənizi, Ərdəbil şəhərindən azca şimalda başa çatırdı. Bu xəritəyə görə Batumi, Axalsix, hətta Mstexa və Tiflis şəhərləri Ermənistana məxsus idi. Gürcüstana isə kiçik və dar bir zolaq verilmişdi.

Ermənilərin həyasız ərazi iddiaları nəticəsində Borçalı torpaqları yenidən hərbi əməliyyatlar meydanına çevrildi. 1917-ci il dekabrın 17-də Borçalı torpaqları uğrunda rəsmi olaraq gürcü-erməni müharibəsi elan edildi [7, 135]. Borçalı zonasının Kolagir, Sadaxlı, Qızıl-Hacılı, Ləmbəli, Şamlıq və Körpülü kimi kəndləri xüsusi ilə bu hücumlar zamanı əziyyətlərə məruz qalmışdı [10, 117].

Arxiv materialları sübut edir ki, bu dövrdə rus-türk cəbhəsindən qayıtmış Borçalı bəyləri Almaz ağa Mursaqulov və Qara bəy öz dəstələrini yığaraq doğma torpaqları uğrunda mübarizə aparmışlar. Hakimiyyət orqanları tərəfindən həyata keçirdikləri bütün tədbirlərə baxmayaraq, erməni ekstremistləri azərbaycanlıların yaşayış məntəqələrində dinc əhaliyə qarşı hücumları davam edirdilər. Ancaq ingilis qoşunu 1917-ci il dekabrın 31-də Şərqi Gürcüstana daxil olduqdan sonra müharibə rəsmi olaraq dayandırıldı [19, 84]. 1918-ci il yanvarın 9-dan 17-ə kimi Tiflisdə keçirilmiş konfransda isə Lori sahəsi (neytral) bitərəf zona elan edildi [28, 37]. Lori sahəsi bitərəf zona elan olunduqdan sonra Borçalı qəzasının ərazisi azalaraq 1918-ci ildən 1921-ci ilə kimi 4.360 kvadrat kilometr təşkil edirdi [11, 15-16], (müqayisə üçün bildirək ki, yuxarıda göstərdiyimiz dövrə qədər qəzanın ərazisi 6.567 kv. kilometr idi) [7, 47].

Türk İslam Şurasının 1918-ci ilin yanvar ayının ilk günlərində keçirilmiş Ərdəhan konfransında [11, 96], sonra isə həmin ayın ortalarında keçirilmiş Qars konfransında [11, 134] müxtəlif məsələlərin müzakirəsi ilə yanaşı, Borçalı torpaqlarının taleyi haqqında məsələ də müzakirə edildi.

1918-ci il iyunun əvvəllərində Borçalı qəzasında xalq hərəkatına son qoymaq üçün burada nəinki gürcü, həm də alman hərbi hissələri yerləşdirilmişdi. "Bu hərbi hissələrə əmr verilmişdi ki, dəmiryol boyu Senain stansiyasından Poylu körpüsünə qədər olan bütün ərazini tutsunlar" [2, 47].

Yerli hakimiyyət orqanları mövcud olan şəraitin öhdəsindən gələ bilmədikləri üçün çıxılmaz vəziyyətdə olan Borçalı zonasının müsəlman əhalisi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Sədrinə məktubla müraciət etməyə məcbur olmuşdular.

1918-ci ilin yayında borçalılar "Qarapapaq" xanlığının yaradılması haqqında ideyanı irəli sürürlər. Bu ideya zonanın bütün müsəlman əhalisindən dəstək alandan sonra qərara alındı ki, müvafiq olaraq Azərbaycan və Türkiyə hökumətlərinə müraciət edilsin. Azərbaycan Respublikası Nazirlər Şurasının Sədrinə yenə bir məktub göndərildi. Bu məktubda nəinki Borçalıda yaranmış sosial-siyasi vəziyyət təhlil edilir, həmçinin burada yaranmış vəziyyətdən çıxış yolları təklif olunur və Borçalı zonasının bütün müsəlman əhalisinin adından Azərbaycan Respublikasının tərkibinə daxil olması haqqında razılıq ifadə olunmuşdu. Məktubu 1337-ci (1918) məhərrəm ayının 5-də ildə Borçalı zonası üzrə sünnilərin başçısı qazı Allahyarzadə Yusif əfəndi, Borçalı zonası şiələrinin qazısı Məhəmməd Şeyx Məhəmməd Əli, Borçalı xeyriyyə cəmiyyətinin sədri Qurban-Əli əfəndi Xəlilzadə və bir sıra digər üzvlər imzalamışlar. "Ancaq nə Türkiyədən, nə də ki Azərbaycan Demokratik Respublikası hökumətindən heç bir dəstək olmadan bu çətin siyasi məqamda borçalılar özlərini qorumaq üçün onlar hər-hansı bir siyasi qurum yaratmaq məcburiyyətində idilər" [3, 93].

Tarixi zəruriyyətlə bağlı olaraq 1918-ci ilin noyabr ayında Cənubi Qafqazda bir neçə kiçik respublika yarandı. Bunlar "Müvəqqəti Axiska hökuməti, Borçalı-Qarapapaq respublikası, Araz respublikası və geniş ərazini özündə birləşdirən Cənubi-Qərb Qafqaz hökuməti" idilər [1].

Öz müstəqilliyini saxlamaq üçün sonralar yuxarıda göstərdiyimiz türk respublikalarının hamısı “Qars İslam respublikası”nın tərkibinə daxil oldular. Bu respublikanın ilk prezidenti Borçalı zonasının Kəpənəkçi kəndindən olan Emin Ağa Acalov idi.

1919-cu il yanvarın 17-18-də Qars şəhərində gənc respublikanın birinci konqresi keçirildi. Lakin bu dövlət çox yaşamadı, belə ki, bir neçə aydan sonra ingilislər “Cənubi-Qərb Qafqaz türk Respublikası”na son qoydular. Çünki Türkiyə və Almaniyanın birinci dünya müharibəsində məğlubiyyətindən sonra Cənubi Qafqazda xarici siyasətin konyukturası qalib gəlmiş dövlətlərinin, yəni Antantanın xeyrinə dəyişdi. Erməni daşnakları bu şəraitdən dərhal istifadə edərək revanş götürüb hərbi yolla sərhədləri öz xeyrinə dəyişdirmək istədilər. Daşnak Ermənistanı hesab edirdi ki, məqsədlərinə çatmaqda ona Antanta ölkələri kömək edəcək.

Daşnaklar dərhal “Böyük Ermənistan” ideyası ilə sayıqlayaraq öz tələblərini irəli sürərək, Gürcüstanın tərkibindəki Axalkalaki və Borçalı qəzalarını, Naxçıvan, Qarabağ, hətta Azərbaycanın tərkibinə daxil olan keçmiş Yelizavetpol (Gəncə) quberniyasının cənub hissəsini də Ermənistana ilhaq etməyə çalışırdılar.

İlk hərbi əməliyyatlar Senain stansiyasında, Allahverdi, Ozanlar, Voronsovka və Sadaxlı kəndlərinin ərazisində baş verdi. 1918-ci il dekabrın 17-də Ermənistanın xarici işlər Komissarlığı Gürcüstan hökumətinə nota [12, 27] göndərərək Gürcüstandan Yuxarı Kartli sərhədlərindən başlayaraq bütün cənubda yerləşən ərazilərindən imtina etməsini tələb edirdi. Bu ultimatuma görə Gürcüstan Axalkalakidən, Borçalı torpaqlarından və Tiflis şəhəri daxil olmaqla Tiflis quberniyasının bir hissəsindən imtina etməli idi.

Həmin gün, yəni ağlasığmaz tələblərlə dolu olan ultimatum təqdim edilən gün - 1918-ci il dekabrın 17-də Ermənistan rəsmi şəkildə Gürcüstana müharibə elan etdi. O zaman çox kiçik (cırtdan) olan Ermənistan qonşu dövlətlərə - Azərbaycana və Gürcüstana qarşı elə tələblər irəli sürürdü ki, guya bu müharibədə qalib gəlmiş super bir dövlətdir.

“Belə bir şəraitdə ingilis-fransız imperialistləri peyda olaraq, ultimatum formasında hərbi əməliyyatların dayandırılmasını və danışıqlara başlanmasını tələb etdilər. 1918-ci il dekabrın 25-də Tiflis şəhərində açılmış konfransda ingilis generalı Raykroft, fransız missiyasının başçısı Şardinyi, Gürcüstan hökumətinin sədri Yordaniya ilə birlikdə Ermənistan nümayəndəsi Camalyanın iştirakı ilə hərbi əməliyyatların dərhal dayandırılmasını qərara aldılar” [11, 482].

Bu məqsədlə ingilis, fransız, gürcü və erməni nümayəndələrindən ibarət olan qarışıq komissiya yaradıldı. Belə bir fakta diqqəti cəlb etmək istəyirik ki, Azərbaycan tərəfi heç hesaba alınmadı, halbuki Borçalı zonasında yaşayan Azərbaycan əhalisi bu hadisələr nəticəsində hamıdan çox zərər çəkirdi.

1919-cu il yanvarın 9-dan 17-nə kimi ingilis polkovniki Stüartın sədrliyi ilə Gürcüstan və Ermənistan hökumətləri nümayəndələrinin konfransı keçirildi, burada qəbul edilmiş sazişə görə “Ermənistanla, Gürcüstan arasında Tiflis

quberniyasına daxil olan Borçalı qəzasının bir hissəsi Lori-Pəmbək zonası hər iki respublika tərəfindən onlar arasında sərhəd mübahisələri həll edilənədək bitərəf zona kimi tanındı" [8, 1].

Bu məsələnin həll edilməsi Paris sülh konfransınadək təxirə salındı. Bu səbəbdən həm Gürcüstanda, həm də Ermənistanda qarşıdakı konfrans üçün təcili surətdə materiallar toplanırdı. Gürcüstan hökuməti tarixi hüquqi prinsipini əsas tutaraq mübahisəli ərazilərin ona məxsus olduğunu sübut etməyə çalışırdı. Lakin erməni tərəfi çoxillik mübarizə nəticəsində hiyləgərliklə istədiyi torpaqları Gürcüstandan qopara bilmişdi. Bunun nəticəsində Azərbaycanın tarixi Borçalı torpaqları həmişəlik iki hissəyə bölündü.

## ƏDƏBİYYAT


1. Abbasoğlu A. Qafqazda türk cümhuriyyəti. "Ədəbiyyat"qəz. 1991-ci il, 4 yanvar.
2. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: 1990.
3. Ömərli V. Borçalı distansiyası // Ş.Məmmədlı. Paralanmış Borçalı. // Bakı, 2001.
4. Все Закавказье. Отд. I. Тифлис, 1923.
5. Джавахишвили И. Армянские ученые и вопиющие камни. Тифлис, 1902.
6. Документы по истории Грузии (1862-1917 гг.) т.,1,ч.1. Редакт. Чхетия Ш.К. Тбилиси, 1954.
7. АППОДАР, №1199, коп. ф. №815, д.21-22.
8. АППОДАР, №1319, коп. ф. №832, д.146.
9. ГИАГ, ф.1701, д.6.
10. ГИАГ, ф.1701, д.89.
11. ЦГАГР, ф.12, д.156.
12. ЦГАГР, ф.1471, д.639.


## СИТУАЦИЯ СЛОЖИВШАЯСЯ ВНУТРИ И ВОКРУГ БОРЧАЛИНСКИХ ЗЕМЕЛЬ В НАЧАЛЕ XX ВЕКА


**М.А.АББАСОВА**



**РЕЗЮМЕ**

В статье даётся обзор событий происходивших в Борчалинской зоне, находящейся в составе Восточной Грузии (Картли-Кахетии) в начале XX века. Население зоны в основном состояло из азербайджанских тюрков, что показано на примере статистических данных.

Особое внимание здесь уделяется трудному положению народа в результате военных действий в годы 1-й мировой войны, а также межнационального конфликта, спровоцированного армянами в 1905 и 1918 годах.

В конце статьи описываются события, в результате которых от Борчалинских земель была отторгнута Лори-Памбакская зона и передана в состав, только что появившейся на карте Южного Кавказа – Армении.



**Ключевые слова**: Борчалинская зона, азербайджанцы, армяне, Восточная Грузия, война, крестьяне, Карапапаг

## THE SITUATION IN AND AROUND THE LANDS OF BORCHALI AT THE BEGINNING OF THE XX CENTURY

**M.A.ABBASOVA**

**SUMMARY**

The article overviews the events which took place in Borchali zone, a part of Eastern Georgia, at the beginning of the XX century. According to the statistics, this zone was initially populated by Azerbaijani turks.

Particular attention in the article focuses on hard living conditions of the people caused by warlike actions during World War I and on the ethnic conflict provoked by the Armenians in 1905 and 1918.

The article finally describes the events as a result of which some part of Borchali lands, Lori-Pambac zone, were alienated and annewed by Armenia.

**Key words:** Borchali zone, Azerbaijanis, Armenians, Eastern Georgia, war, villagers, Garapapag